# İstedad və zəhmət

## Şöhrətin zirvəsinə doğru yolda



*Müasir Azərbaycan ədəbiyyatının və kino sənətinin tanınmış nümayəndələrindən olan Əmir Pəhləvan (Hacıyev Əmir Pəhləvan oğlu) 1959-cu ildə Naxçıvan MR-in Şahbuz rayonunun Mahmudoba kəndində anadan olub. Cəlil Məmmədquluzadə adına Şahbuz rayon orta məktəbini bitirib (1976), Rusiyanın Novosibirsk vilayətində əsgəri xidmətdə olub (1977-1979), Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb (1980-1985). Eyni zamanda Azərbaycan radiosunun "Cənub verilişləri" redaksiyasında "Gəncliyin səsi" proqramının yaradıcısı kimi fəaliyyətə başlayıb (1981), "Baku", "Bakı" axşam qəzetlərində (1985-1988), "Azərbaycan müəllimi" qəzetində (1988-1990) müxbir işləyib, "İlham" qəzetinin təsisçisi və baş redaktoru olub (1990).*

*1985-ci ildə Əmir ali məktəbin sonuncu kursunu bitirməmiş "Bakı", "Baku" axşam qəzetlərinə müxbir kimi işə götürülür. Buradan o, "Azərbaycan müəllimi" qəzetinə dəvət olunur. Həmin illərdə təcrübəli publisist kimi tanınan Əmir Pəhləvanın "O ay bir də doğmayacaq" adlı ilk kitabı çapdan çıxır. Əmir Hacıyev 1990-cı ildə "İlham" mədəniyyət qəzetini təsis edərək baş redaktoru olur. Beş ildən sonra Əmir Pəhləvan kino sənətinə böyük maraq göstərir. "Step LTD" kinoşirkətini təsis edir, şirkətin xəttilə yaradılan "Fransız", "Qarabağ şikəstəsi", "Spasibo", "Qız qalası" bədii filmlərinin, "Bakı nefti və Nobellər", "Avtoritet", "Göyçay yəhudiləri", "Doqquzuncu oğuz uyğurları", "Kurqanlar", "Hunqoriya" və başqa sənədli ekran əsərlərinin müəllifi və rejissoru olur. O, bu filmlərində tariximizin, taleyimizin maraqlı səhifələrini canlandırmışdır. "Qarabağ şikəstəsi" filmi ilə o, Azərbaycanın acı taleyini, qismətinə qaçqınlıq düşmüş insanların vətən nisgilini ekrana gətirir. Bu filmlər yeniləşən Azərbaycanda sovet kino incəsənətinin standart stereotiplərini və şablonçuluğunu dağıdaraq milli kinomuzda, dramaturgiyamızda yenilik edir.*

*Əmir Pəhləvan öz filmləri ilə beynəlxalq festivallara çıxmış və ölkənin kino sənətini bu və digər dərəcədə təmsil etmişdir. 1998-ci ildə ABŞ-ın Kaliforniya ştatında milli atributlarımızdan olan Bayrağımıza həsr etdiyi "Spasibo" adlı bədii filmi Hollivud sənədli filmlər festivalında mükafata layiq görülmüş və Los-Ancelesin 18 telekanalında yayımlanmışdır. "Bakı nefti və Nobellər" adlı üçhissəli sənədli filmi isə Fransanın Nant şəhərində keçirilən "Üç qitə" kinofestivalında 2 medala layiq görülüb. O vaxt Fransada nəşr olunan məşhur "Le Figaro" qəzeti yazırdı: "Bakı nefti və Nobellər" filmi avropalılara yeni sürpriz oldu. Filmin müəllifi Əmir Pəhləvan bizə Bakı və Nobellər haqqında gizli qalan məqamların üstünü açdı." Bu film Almaniyada DVD diski formasında milyon tirajla yayımlanmışdır.*

*İndiyədək 71 kitabın müəllifi olan Əmir Pəhləvanın 30 kitabı Azərbaycanda, 15 kitabı Ukraynada, 11 kitabi keçmiş possovet respublikalarında, 15 kitabı isə Avropa ölkələrində və Amerikada çap olunub. "Bakılı Nobel", "Neft taleli Nobel", "Ayrılıq", "Səfir" "İsa, Məryəm və Sona" sənədli romanları, "Bakı nefti və Nobellər" üçhissəli sənədli filmi DVD formasında Almaniyada işıq üzü görərək, yüksək tirajla dünya oxucularına və tamaşaçılarına təqdim edilib. "İnsan və İblis" pyesi Bakı Bələdiyyə Teatrında (1999), "İstədiyim yar idi" librettosu Musiqili Komediya Teatrında (2009) səhnələşdirilib.*

Xalq şairi Məmməd Araz deyirdi: Əmir Pəhləvan Buz bulaqlı-Batabatlı Şahbuzun şair oğludur. "Bir qəlbin səmimi duyğularla dolu lirika aləmidir.

*Mən də can verirəm - Şahbuzdan ötrü,*
*Babamın, atamın qəbri ordadır,*
*İlk səsim, ilk sözüm, ilk məhəbbətim,*
*Uşaqlıq dünyamın səbri ordadır.*

Bu misraları uca-uca dağların, qayaların doğurduğu əks-sədaların ekizi sayıram. Məncə, çoxlarının publisist, yazıçı-dramaturq, kinorejissor və ssenarist kimi tanıdığı Əmirdən onu bir təkcə bu şeiriyyət ayırır. Lirika dünyasında Əmir Pəhləvan Şahbuzun şairidir".

Əmirin "Azərbaycan şərqiləri" kitabını səhifələyərkən riqqətə gələn Məmməd Araz: "Mənə elə gəldi ki, qoynunda bu əzəli və əbədi şərqiləri oxuduğu Azərbaycanımız da elə Şahbuzdur. Bütün dünya başdan- başa Şahənşahlar yurdu Şahbuzun şahlıq taxtına dayanıb durub" - deyirdi:

*Bir əlçim Günəşəm, bir əlçim Alov,*
*Torpağın köksündə çağlayan qanam,*
*Şahbuz dağlarından üzü sabaha,*
*Yeriyən bir parça Azərbaycanam.*

Vətən sevgisi onun ən kiçik bir hissəsinə olan sevgi qədərdir. Əgər sən öz evini, küçəni, el-obanı sevmirsənsə, onda sənin dünya vətəndaşı, şəxsiyyət olmağın da imkan xaricindədir. Mən sevinirəm ki, Əmir Pəhləvanın şeir gülzarındakı çiçəklər Şahbuz ətirlidir, tuti dilli nəğmələr Şahbuz ahəngidir, xınalı qafiyələr Şahbuz gözəlləmələridir. Bunları oxucuya mən - Məmməd Araz deyirəm. Bu sözlərin ünvanı yalnız bu gün deyil, "Azərbaycan şərqiləri"ni zamanı aşan bir kitab sayıram. Olsun ki, 50 il, 100 il, beş əsr sonra da... Əmir Pəhləvanın bu qadir, əfsanəvi, nəğməli "Azərbaycan şərqiləri" həmişə doğma Şahbuzumuzun şirin dilində ötəcək.

Mən buna inanıram. Özümə, sözümə inandığım qədər".

Əmir Pəhləvanın yaradıcılığına və şəxsiyyətinə böyük hörmət bəsləyən söz xiridarlarından biri də Bəxtiyar Vahabzadə idi. Onun Əmirə ünvanladığı məktubda oxuyuruq:

"Sizi, ulu Məmmədəminin yaratdığı Universitetin məzunları sırasında barmaqla sayılan millətçi gənclərimizdən biri hesab edirəm. Bizim millətimizin bu günündə ürəyi böyük Turan - böyük Türkiyə - böyük Azərbaycan eşqi ilə yanan ziyalılarımıza çox ehtiyacımız var. Mən sizin yaratdığınız müstəqil milli mətbuata - "İLHAM" kültür qəzetinə, çəkdiyiniz fövqəlmilli və həm də satirik ifşaçı bədii filmlərə, şeirlərinizə, dramaturji yaradıcılığınıza, xüsusilə, Bakı Bələdiyyə Teatrında 1999-cu ildə böyük qalmaqalla səhnəyə qoyulmuş "İnsan və İblis" tarixi-fəlsəfi pyesinizə çox yaxından bələdəm.

Sizin kimi - millətimizin gözünün işığı olan bir ziyalıya qarşı baş verən haqsız təqiblərdən - terror və təhdidlərdən də xəbərim var. Nə edəsən ki, bizim cəmiyyət istedikləri öncə özü öldürür, sonra da göylərə qaldırır. Bu mənhus ənənə Turan əşirətli xalqlara qarşı bu günəcən düşmənlərimizin gizli işləkləri nəticəsində sürüb gəlir və sonda Azərbaycan türkünün ayağına yazılır. Halbuki bu əxlaqsızlığı başımıza indiyəcən vurmuş və vurmaqda olan namərdlər, satqınlar və xainlər olmuşlar.

Oğlum Əmir, səni mənəvi övlad saymağımı sözgəlişi hesab etmə. Həqiqətən mənim "Gülüstan" poemamda qaladığım milli azadlıq ocağının bir közü də Əmir Pəhləvandır. Eşidəndə ki, "Fransız", "Qarabağ şikəstəsi", "Spasibo", "Qız Qalası", "Bakı nefti və Nobellər", "Avtoritet" və s. filmlərin ssenari müəllifi və rejissoru Əmir Pəhləvan, həmçinin oxucuların görüşünə "Turan türküləri" adlanan yeni kitabında həm də öz şeirləri ilə gəlir, sevincim birə min oldu. Bu gözəl kitabdakı poeziya həqiqətən Turan ruhunun parlaq ifadəsidir. Ümidvaram ki, bu kitab son türkünüz olmayacaqdır, qədim Azərbaycanımızın, Ulu Tanrının müqəddəs poeziya qəsrinə "Xoş gəlmisən" deyirəm".

Ədibin yenicə işıq üzü görmüş kitabı "Vətən dahiləri" adlanır. 400 səhifəlik kitabın "Ön söz"ündə deyilir: "Kitabda müxtəlif dövrlərdə yaşamış elm-sənət adamlarının, əfsanəvi və tarixi qəhrəmanların, tanınmış şəxsiyyətlərin həyat və yaradıcılıqları araşdırılıb və onların hər birinə şeirlər həsr olunub. Əmir Pəhləvan belə bir böyük işin öhdəsindən məharətlə gəlib.

Mahiyyət etibarilə poetik publisistik ensiklopediya məzmunu daşıyan əsər Dədə Qorqudla başlayıb, çağdaş şəxsiyyətlərlə qurtarır. Şeirlərin əksəriyyəti həsr olunduğu şəxsin kimliyinin və xidmətlərinin daha aydın və əhatəli dərk olunmasına yardım məqsədi daşıyır".

Müasir Azərbaycan ədəbiyyatının və kino sənətinin tanınmış nümayəndələrindən olan Əmir Pəhləvan artıq ədəbiyyat nərdivanında məharətlə addımlayır. Ona şərəfli və şöhrətli yaradıcılıq yollarında uğurlar arzulayırıq.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**